

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 sentyabr 2024-cü il №66 (2877) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Sentyabrın 2-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Rəcəb Tayyib Ərdoğan Azərbaycanda keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Türkiyə Prezidenti bu seçkilərin Azərbaycanın suverenliyinin tam bərpa edilməsindən sonra ölkəmizin bütün ərazisində keçirilən ilk parlament seçkiləri olmasının önəmini qeyd edib. Rəcəb Tayyib Ərdoğan seçkilərin azad, sərbəst, demokratik şəraitdə keçdiyini və Azərbaycan xalqının iradəsini əks etdirdiyini vurğulayıb.

Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Türkiyə arasında parlamentlərarası əlaqələrin əhəmiyyəti və parlament nümayəndə heyətlərinin mütəmadi qarşılıqlı səfərləri qeyd olunub. Eyni zamanda, ölkəmizdə keçirilən bu seçkilərdə Türkiyə Böyük Millət Məclisinin parlamentlərarası dostluq qrupunun müşahidəçi qismində geniş tərkibdə iştirak etdiyi bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

* * *

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Ersin Tatar növbədənkənar parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. O, seçkilərin azad, demokratik, sərbəst mühitdə keçdiyini və Azərbaycan xalqının iradəsini ifadə etdiyini vurğulayıb.

Ersin Tatar Azərbaycan parlamentində Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupunun yaradılmasını da vurğulayaraq yeni parlamentlə parlamentlərarası dostluq qrupu çərçivəsində əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Ölkəsinin Türk Dövlətləri Təşkilatının Şuşa Zirvə görüşünə dəvət olunmasını məmnunluqla xatırladan Ersin Tatar Şimali Kipr Türk Cümhuriyyətinin bu təşkilatla əlaqələrinin inkişafına verdiyi dəstəyə və dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Azərbaycanın bundan sonra da Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətlər Təşkilatı çərçivəsində əlaqələrinin inkişafına və əməkdaşlığının genişlənməsinə dəstək verəcəyini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan İmaməddin Xəlilovu təbrik edib




Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilov - qızıl medal! Türkiyə parataekvondoçusu Fatih Çelik - gümüş medal! Hər iki idmançını təbrik edir, onlara yeni qələbələr arzulayıram! Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında gümüş medal qazanan Raman Saleyi təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında gümüş medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Gümüş medal! Paraüzgüçü Raman Saley Azərbaycanı "Paris-2024" Yay Paralimpiya Oyunlarında layiqincə təmsil etdi! İdmançımızı təbrik edir, ona güc, enerji və yeni qələbələr arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva paraatlet Səid Nəcəfzadəni Paralimpiya çempionu olması münasibətilə təbrik edib




Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Səid Nəcəfzadənin "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Paraatlet Səid Nəcəfzadəni "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması münasibətilə təbrik edirəm! Peşəkarlıq və qətiyyət nümayiş etdirən idmançımız Azərbaycan azarkeşlərinin ümidlərini doğrultdu! Çempionu səmimi-qəlbdən təbrik edir, ona yeni nailiyyətlər arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan Lamiyə Vəliyevanı təbrik edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan paraatleti Lamiyə Vəliyevanın "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Ura! Növbəti qələbəmiz! Dördqat dünya çempionu Lamiyə Vəliyeva "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazandı! İdmançımızı səmimi-qəlbdən təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərə təşəkkürümü bildirirəm!".

*Reportaj*



## Mövqelərimiz sadəcə müşahidə məntəqəsi deyil, həm də təhlükəsizlik rəmzidir

Sirr deyil ki, Ermənistan silahlı qüvvələrinin növbəti genişmiqyaslı hərbi təxribatına cavab olaraq, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qazanılan şanlı Zəfər dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Mənfur düşmən bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutdu, nəticədə mülki əhali və hərbi qulluqçular arasında yaralananlar, həlak olanlar oldu. Müzəffər Ali Baş Komandanımızın döyüş əmri ilə ordumuz bütün cəbhə boyu əks-hücum əməliyyatına başladı. Uğurla başlayan haqq savaşımızın ilk saatlarından düşmənin möhkəmləndirilmiş, mifləşdirilmiş "Ohanyan səddi" adlanan sədlərini yaran Azərbaycan Ordusu Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərini, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəklikləri azad etdi. Bu Böyük Qələbəyə gedən ilk addımlar oldu.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətlə bildirdiyi: "Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq" bu kəlamı artıq tarixi əhəmiyyət daşıyır. Cəmi 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan Ordusu bütün istiqamətlərdə yüksək döyüş, fiziki və psixoloji hazırlıq nümayiş etdirdi, düşmən üzərində üstünlüyünü bütün dünyaya göstərdi. Otuz ilə yaxın işğalda olan torpaqlarımızın hər qarışı artıq əzəli sahiblərindədir. Qarabağ, hər zaman olduğu kimi, Azərbaycandır!

Lakin Aprel və Tovuz döyüşləri, Günnüt əməliyyatı və Vətən müharibəsi Ermənistan hərbi-siyasi rəhbərliyinə dərs olmamış kimi, düşmən yenə hərbi təxribatlarından əl çəkmədi. 44 günlük haqq savaşından sonra baş verən digər qalibiyyətli döyüş əməliyyatlarının nəticəsində düşmən yenidən sarsıdıcı zərbələr aldı. Bununla Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü tam bərpa edildi. Hal-hazırda işğaldan azad olunmuş ərazilərimizdə, bütün döyüş mövqelərində Azərbaycan Ordusunun igid hərbçiləri daim ayıq-sayıqlıqla xidmət aparır və istənilən təxribatların qarşısını almağa hazırdırlar.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri İtaliyanın Azərbaycandakı səfiri ilə görüşüb



Sentyabrın 2-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Luka di Canfrançesko ilə görüşüb.

Müdafiə naziri Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin digər sahələrdə olduğu kimi, hərbi sahədə də xüsusi xarakter daşıdığını və bunun hər iki ölkə ordusunun inkişafına töhfə verəcəyini bildirib.

Müdafiə Nazirliyi xəbər verir ki, 2024-2025-ci illər ərzində Azərbaycanla İtaliya arasında hərbi sahədə planlaşdırılan 31 tədbirdən bir qisminin icra edildiyi qeyd olunub.

Hərbi sahədə əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edən cənab L.Canfrançesko ölkələrimiz arasında qarşılıqlı səfərlərin mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.



İtaliyanın Azərbaycandakı hərbi attaşesi 1-ci dərəcəli kapitan Cianfranko Vizzininin də iştirak etdiyi görüşdə tərəflər hərbi sahədə əməkdaşlığın inkişaf perspektivlərini müzakirə edib, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

# Baş direktor Türkiyədə hərbi məktəblərin buraxılış mərasimlərində iştirak edib







*Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının Quru Qoşunları, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik məktəblərinin buraxılış mərasimlərində iştirak edib.*





Müdafiə Nazirliyi xəbər verir ki, mərasimlərdə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan çıxış edərək məzunları təbrik edib.

Baş direktor təhsildə fərqlənən azərbaycanlı gənc zabitlərə diplomlar təqdim edib.

Qardaş ölkəyə səfər çərçivəsində müdafiə nazirinin müavini - Baş direktor, həmçinin bir sıra görüşlər keçirərək Azərbaycan və Türkiyə arasında hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığa dair geniş fikir mübadiləsi aparıb.

## Medallı igidlərimiz

# Peşəsinin vurğunu

*"N" hərbi hissəsinin şəxsi heyəti də 44 günlük Vətən müharibəsində şücaət, igidlik göstərib. Tarixi qələbədən sonra da hərbi qulluqçular xidməti vəzifələrinin icrasını uğurla davam etdirirlər. Bu günlərdə keçirilən nümunəvi döyüş atışlı, taktiki təlim zamanı peşəkarlığı ilə seçilən zabitlərdən biri də mayor Əlibala Azad oğlu Əsədov idi.*

Ürəyi həmişə Vətənə məhəbbət hissi ilə döyünən zabit yeniyetməlik çağlarından hərbi peşəni seçmək, zabit olmaq, düşməndən Vətənin, şəhidlərin qisasını alanların sırasında olmaq arzusunda olduğunu bildirdi. Öyrəndim ki, mayor Əlibala Əsədov Salyan rayonunun Sarvan kəndində anadan olub. Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış İsbəndiyar Həsənovun adını daşıyan məktəbdə təhsil alıb. 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. İllərlə qəlbinə hakim kəsilmiş arzusunu müvəffəqiyyətlə gerçəkləşdirib. Kursant formasını ilk dəfə geyinəndə özünü qürurlu və daha da məsuliyyətli hiss edib. İlk günlərdən hərbi peşənin sirlərini öyrənib. Gənc zabit kimi xidmətə başlayan Əlibala həmişə ona göstərilən etimadı doğrultmağa səy göstərib. İntizamı və şəxsi keyfiyyətləri ilə kollektivin rəğbətini qazanıb. 2016-cı ilin Aprel döyüşləri zamanı düşmənin canlı qüvvəsinin, texnikasının, dayaq məntəqələrinin məhv edilməsində peşəkarlıq və şücaət göstərib.

Təcrübəli zabit Vətənimizin tarixinə igidlik və Zəfər salnaməsi kimi yazılan 44 günlük Vətən müharibəsində də iştirak edib. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əks-hücum əmrinin yerinə yetirilməsi zamanı tabeliyində olan şəxsi heyəti ilə birlikdə yüksək döyüş hazırlığı nümayiş etdirərək, verilən tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gəlib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Xidməti uğurla davam etdirən mayor Ə.Əsədov tabeliyindəki Vətən müdafiəçilərinə şanlı ordumuzun göstərdiyi igidliklərdən söhbət açır, döyüş təcrübələrini şəxsi heyətlə bölüşür.



Təcrübəli zabit bildirdi ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, sərkərdəlik qabiliyyəti, yürütdüyü diplomatik fəaliyyəti, xalq-ordu yenilməz birliyi, həmrəyliyi ilə qazandığımız tarixi qələbə bizi Vətənimizin işıqlı gələcəyi naminə daha böyük uğurlara ruhlandırır. Hər zaman Vətənimizi göz bəbəyi kimi qoruyacaq, xidmətimizi layiqincə davam etdirəcəyik.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Ordenli igidlərimiz

# “Vətən mənəm, Vətən sənsən, Vətən bizik!”

*Rauf Zeynalov Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub. Göyəzən qüruruyla, Damcılı duruluğuyla böyüyüb, yeniyetmələşib. Ermənistan siyasi hiyləgərliklə Qazaxın ərazisindən 2000 hektar meşə zolağını ələ keçirmişdi, sonralar 7 kəndi işğal etmişdi. Rauf hərbçi olmağı onda qərara almışdı...*

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil aldı. 2008-ci ildə "leytenant" hərbi rütbəsi ilə qoşunlarda xidmətə başladı. Müxtəlif hərbi hissələrdə, müxtəlif vəzifələrdə xidmət etdi.

Polkovnik-leytenant Rauf Zeynalov İkinci Qarabağ müharibəsi başlayanda xidmət etdiyi hərbi hissə cəbhə bölgəsindəydi. Hərbi hissənin döyüş tapşırığına əsasən, düşmənin nisbətən uzaq dərinliklərdə yerləşən strateji hədəflərinə çoxlu sayda atəş zərbələri vuracaq, onları məhv edəcəkdilər.

Hərbi hissənin İkinci Qarabağ müharibəsində ilk mərmini atmasını polkovnik-leytenant Rauf Zeynalov qürurla xatırlayır:

- Atışlarımız dəqiq olmuşdu. Dərinliklərdə tələfat verən düşmən çaşqınlıqla atışmışdı. Atışlarımız döyüşənlərimizin döyüş əzmini, qələbə ruhunu yüksəltmişdi...

Mövqe qələbələri qazanıldıqca Böyük Qələbə ərəfəsində olan döyüşçülərimiz daha rəşadətlə döyüşürdülər. Hər hərbi hissə döyüş tapşırıqlarını böyük məsuliyyətlə (dövlətə, dövlətçiliyə böyük sədaqətlə) yerinə yetirirdi. Bu müharibə xalqın müharibəsi idi, ruhun müharibəsi idi. Füzulinin Qaraxanbəyli kəndi işğaldan azad ediləndə bütün hərbi hissələrin döyüşçüləri özü-



nü ruhən həmin döyüşün iştirakçılarının sırasında bilmişdi. İlk qələbənin sevinci son döyüşün başlanğıcının əzmi kimi yaşanılmışdı. Zabit Rauf Zeynalovun xidmət etdiyi hərbi hissənin döyüşçüləri də müharibənin son döyüşünə döyüşə-döyüşə bu əzmlə çatmışdılar. Noyabrın 7-də komandanlığın əmri ilə Şuşa istiqamətində düşmənin xeyli canlı qüvvəsinin, döyüş texnikasının məhv edilməsi ilə nəticələnən atış aparmışdılar. Bu atışlar Vətən müharibəsində düşmənin 100-ə yaxın komanda və dayaq məntəqəsini, müxtəlif təyinatlı strateji obyektini, qruplaşmalarını məhv etmiş hərbi hissənin müharibədə sonuncu atışları olmuşdu. Döyüşlərdə batareyanın şəxsi heyəti itki verməmişdi; döyüşlərdə qəhər qələbə ovqatına pərsəng olmamışdı...

Tarixi Zəfər qazanılmışdı...

Polkovnik-leytenant Rauf Zeynalov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib...

Zabit Rauf Zeynalov 2023-cü il 19-20 sentyabr antiterror əməliyyatlarının da iştirakçısıdı. "Bu döyüşlər Vətən müharibəsində qazanılmış tarixi Zəfəri həm hərbi, həm dövlətçilik, həm də ruhumuzun istəyi baxımından tamamladı...", - bu qürur döyüşçü ruhuna gözaydınlığı qürurudu. Polkovnik-leytenant Rauf Zeynalov bu döyüşlərdə iştirakına görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub...

Vətən müharibəsinin bütün iştirakçıları döyüş yoldaşlarıdı. Rauf bütün döyüş yoldaşlarının təltiflərinə görə sevinir... Polkovnik-leytenant Rauf Zeynalov 2011-2012-ci illərdə Türkiyə Milli Müdafiə Universitetinin müdavimi olub. Bu təhsil onun peşəkarlığını yüksək səviyyədə təkmilləşdirib...

Söhbətləşəndə bir poetik fikir dedim: Vətən mənəm, Vətən sənsən, Vətən bizik! Polkovnik-leytenant Rauf Zeynalov da, əsgərlər də fikrimi bəyəndilər...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Mövqelərimiz sadəcə müşahidə məntəqəsi deyil, həm də təhlükəsizlik rəmzidir



**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Ordusunda aparılan islahatlar, inkişaf prosesi nəticəsində döyüş hazırlığı səviyyəsinin artırılması ilə yanaşı, həm də hərbi qulluqçuların məişət şəraiti də yaxşılaşdırılır. Bu tədbirlər zamanı döyüş mövqelərinin müasirləşdirilməsinə, daha rahat xidmət şəraitinin yaradılmasına da xüsusi diqqət yetirilir. Texnoloji tərəqqi sayəsində əsgərlər müasir rabitə və müşahidə vasitələri ilə silahlanıblar ki, bu da onlara ərazilərimizi daha effektiv qorumağa və mümkün təhlükələrin qarşısını almağa imkan verir. Lakin ən qabaqcıl texnologiyalar belə insan amilini əvəz edə bilməz - əsgərlərin öz peşəkarlığı, məsuliyyəti və fədakarlığı həmişə həlledici rol oynayır. Azərbaycan hərbçisi hər gün öz doğma torpağının təhlükəsizliyi üçün məsuliyyət daşıyan insandır.

İşğaldan azad olunan ərazilərdə hərbi qulluqçular üçün yaradılan şəraitlə tanış olmaq, Vətənin keşiyində duran mərd oğullarımızla söhbətləşmək məqsədi ilə "N" hərbi hissəsinə yollandıq. Burada ilk tanış olduğumuz zabitlərdən biri kapitan Elvin Piriyev oldu. O bildirir ki, dağlarda və düzənliklərdə yerləşən hər bir mövqe sadəcə müşahidə məntəqəsi deyil, müstəqillik və təhlükəsizlik rəmzidir. "Bizim üçün hərbi xidmət xüsusi əhəmiyyət kəsb edir, çünki ölkəmizin unikal coğrafi mövqeyi və tarixi əhəmiyyətli sərhədləri var. Dağlıq ərazilər və uzun sərhədlər daimi diqqət və mühafizə tələb edir. Zəngin tarixə və mürəkkəb siyasi kontekstə malik regionda yerləşən Azərbaycan hər zaman müstəqilliyinin qorunmasına xüsusi diqqət yetirib. Qədim zamanlardan başlayaraq, Böyük İpək Yolu boyunca yaradılan strateji postlar əsrlər boyu ticarət yollarını və bölgədə sülhü qoruyub saxlayıb. Bu gün illər keçsə də, bu vəzifədə xidmət cəsarət və fədakarlıq simvolu olmaqda davam edir. Dövlətimizin suverenliyini və ərazi bütövlüyünün mühafizəsini həyata keçirən hərbi qulluqçular relyefin və iqlim şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, öz vəzifələrini sədaqətlə yerinə yetirirlər.

Xalqımızın dinc yaşayışının, əmin-amanlığının bizim ayıq-sayıqlığımızdan asılı olduğunu bilə-bilə apardığımız xidmətlə fəxr edirik. Hər birimiz əsrlər boyu bu torpağı qorumuş əcdadlarımızın igidliklərini xatırlayır, bu vəzifədə xidmət etməyi təkcə hərbi vəzifə deyil, həm də Vətənimiz və tariximiz qarşısında mühüm mənəvi borc hesab edirik", - deyə zabit sözünü bitirir.

Söhbətimiz yekunlaşdıqdan sonra zabit bizi şəxsi heyət ilə tanış edir. Gizir Ceyhun Abdullayev ilə həmsöhbət oluruq. Ceyhun hərbi xidmətin ən vacib cəhətlərindən birinin komanda ruhu olduğunu deyərək söhbətə başlayır. "Biz yalnız tapşırıqları yerinə yetirmək üçün deyil, həm də bir-birimizə dəstək olmaq üçün buradayıq. Əsgərlərimiz yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirirlər. Onlar anlayırlar ki, xidmətimizin böyük əhəmiyyəti var. Apardığımız xidmət regionda sabitliyin və təhlükəsizliyin qorunmasına töhfə verir. Vəzifəmizi yerinə yetirmək fədakarlıq və səy tələb etsə də, Vətənimizi qorumaq üçün üzərimizə düşəni etməkdən qürur duyuruq. Bu qürur qarşılaşdığımız bütün çətinliklərə baxmayaraq, bizə güc və inam verir", - gizir Ceyhun Abdullayev belə deyir.

Gizir Abdullayev onu da vurğulayır ki, döyüş mövqeyində xidmət təkcə peşəkar bacarıqları deyil, həm də şəxsi keyfiyyətləri inkişaf etdirir ki, bu da ömürlük hərbi qulluqçuların yaddaşında qalır.

Döyüş növbətçiliyini inamla yerinə yetirən əsgərlərlə də həmsöhbət oluruq.

Əsgər Cahandar Qasımov hərbi xidmətin müqəddəs pe-



şə olduğundan danışır: "Hər birimiz xidmətimizin vacib olduğunu başa düşürük. Biz Vətənin keşiyində durmuşuq və anlayırıq ki, bütün regionun təhlükəsizliyi və sabitliyi bizim ordumuzun qüdrətindən asılıdır. Azərbaycan Ordusu regionun ən güclü ordusudur və dünyanın ən qabaqcıl orduları sırasındadır. Bu bizə yüksək motivasiya və döyüş ruhu aşılayır. Komandirlərimizin dəstəyi bizə əzmkarlıq göstərməyə kömək edir. Onlar xidmətləri haqqında danışır, ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı qələbədən söz açır, döyüş təcrübələrini bizimlə bölüşürlər. Biz də öz növbəmizdə onları maraqla dinləyir, göstərdikləri igidlik nümunələrini gözümüz önündə canlandırırıq. Qalib Azərbaycan Ordusunda xidmət etmək, azad olunmuş ərazilərin keşiyində durmaq həm ilham mənbəyimiz, həm də böyük fəxr yerimizdir".

Əsgər Ramin Hüseynzadə Cahandar ilə həmfikir olduğunu, ordu sıralarında xidməti ilə qürur duyduğunu bildirir. "Vətənimizə və ordumuza layiqli xidmət etmək üçün daim öz üzərimizdə çalışırıq. Azərbaycan Ordusunun gücü təkcə müasir silah və texnikada deyil, həm də hər bir əsgərin döyüş ruhunda və tükənməz Vətən sevgisindədir".

Əsgərlər Rəsul Qasımov, Rəvan Abdullazadə, Eşqin Muxtarov və Sadiq Əliyev ordunun gələcək inkişafı üçün gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyi ilə bağlı fikirlərini bildirirlər: "Gənclərin vətənpərvərlik tərbiyəsi ordumuzun və bütövlükdə ölkənin gələcəyinin təməlidir. Başa düşürük ki, hazırkı xidmətimiz uzun bir yolun yalnız bir hissəsidir və ordunun bundan sonra da inkişaf edib möhkəmlənməsi üçün ənənələrimizi davam etdirməli, Vətənin müdafiəsinə hazırlaşan yeni nəsillərə aşılamalıyıq. Hər bir gənc bilməlidir ki, hərbi xidmət onun vətəndaşlıq və mənəviyyat borcudur".

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**“Azərbaycan Ordusu”**

# Polkovnik Anar Eyvazov: “Antiterror əməliyyatının qısa müddət ərzində uğurla başa çatması peşəkarlığın və döyüş təcrübəsinin nəticəsidir”

***Dövlət suverenliyimizin tam bərpa olunması ilə nəticələnən antiterror əməliyyatının uğurla başa çatmasının 1-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Anar Eyvazov müsahibə verib. Müsahibəni təqdim edirik.***



**- Cənab polkovnik, 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatından artıq bir il ötür. Əməliyyatdan danışarkən hansı məqamları qeyd etmək istərdiniz?**

- Sualınıza cavab verməzdən öncə bir daha şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların ailə üzvləri və yaxınlarına səbir, döyüşlərdə yaralanan hərbi qulluqçularımıza isə Allahdan şəfa diləyirəm.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 19-20 sentyabr 2023-cü il tarixlərində Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqlarına və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı həyata keçirilmiş antiterror əməliyyatını zəruri edən bir neçə faktoru göstərmək olar.

Bildiyiniz kimi, 2020-ci il noyabrın 10-da Üçtərəfli Bəyanat imzalansa da, Ermənistan silahlı birləşmələri Qarabağdan tam həcmdə çıxarılmadı və qeyri-qanuni erməni silahlı dəstələrinin tərk-silah edilməsi, ərazilərimizdən çıxarılması ilə bağlı Ermənistan tərəfindən heç bir tədbir görülmədi. Əksinə, erməni silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin təminatı məsələləri Ermənistan dövləti tərəfindən həyata keçirildi, qanunsuz yollarla ərazilərimizdə hərbi daşımalar edilməsi cəhdləri səngimədi. Azərbaycan Ordusunun mövqeləri ilə üzbəüz ərazilərdə təkmilləşdirilmə məqsədilə fəal mühəndis-istehkam işlərinin həyata keçirildiyi, silah və texnika cəhətdən mövqelərin gücləndirilməsi, kəşfiyyat-diversiya qruplarının fəaliyyətinin aktivliyi, terror-təxribat məqsədilə minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların yenidən minalanması hadisələri mütəmadi olaraq kəşfiyyat və müşahidə vasitələrimiz tərəfindən müəyyən edilirdi.

Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən Qarabağ İqtisadi rayonunda 500-dən artıq döyüş mövqeyinin, müxtəlif tipli artilleriya qurğuları üçün 350-dən artıq atəş mövqeyinin hazırlandığı müəyyən edilmişdi. Bundan əlavə, Yer-Hava raket sistemləri üçün 12 HHM start mövqeyinin, 30-a yaxın radioelektron mübarizə (REM) sisteminin və 6 radiolokasiya sisteminin koordinatları, həmçinin 15-18 minlik şəxsi heyəti olan hərbi qruplaşmanın mövcudluğu da tərəfimizdən müəyyən edilmişdi. Eyni zamanda, 70-dən artıq polimer tipli yeraltı sığınacaq, 17 silah-sursat (RAS) və yanacaq (YSM) anbarı, bir neçə mina anbarının quraşdırıldığı, həmçinin bəziləri dərinləşdirilmiş olmaqla, 45 daimi dislokasiya və komanda məntəqəsinin yeri tərəfimizdən tam dəqiqləşdirilmişdi. Xüsusi vurğulamaq istərdim ki, anbarlardan bir neçəsi antiterror əməliyyatı zamanı ordumuzun dəqiq zərbəsi nəticəsində sıradan çıxarılmış, digərləri isə bölmələrimiz tərəfindən ələ keçirilmişdi. Həmçinin erməni hərbçiləri tərəfindən əksər hərbi obyektlərin mülki infrastruktura uyğun maskalanması barədə əlimizdə dəqiq informasiya var idi.

Onu da qeyd etməliyəm ki, Vətən müharibəsindən sonra Ermənistandan Qarabağa qanunsuz silah-sursat, şəxsi heyət, yanacaq və minaların daşınması üçün Şuşa şəhərindən yan keçən alternativ torpaq yolu çəkilmişdi. Bir çoxu 2021-ci ildə, yəni, Vətən müharibəsindən sonra Ermənistanda istehsal edilmiş minalar əsasən yaşayış məntəqələrinə və qəbiristanlıqlara yaxın ərazilər, meşəliklər və magistral yollarda, həmçinin təmas xəttinin 2 km genişliyində 100 km-ə yaxın ərazilərdə basdırılmışdı.

Bundan əlavə, Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən erməni əsilli Azərbaycan sakinlərinin məskunlaşdığı yaşayış məntəqələrində döyüş texnikalarının yerləşdirilməsi, həmin yaşayış məntəqələrinin ətrafında uzunmüddətli atəş mövqelərinin qurulması və bölmələrimizin atəşə məruz qalması, hədə-qorxu gəlməklə erməni əsilli mülki sakinlərin silahlanmaya məcbur edilməsi və ordumuzun bölmələrinə qarşı silahlı təxribatlara təhrik edilməsi barədə məlumat əldə edilmişdi.

Qarabağ iqtisadi zonasında fəaliyyət göstərən mühüm strateji infrastruktur obyektlərinin, su anbarlarının, körpülərin, iaşə və istehsal obyektlərinin partladılması məqsədilə təxribat-diversiya planları, dağlarda, meşələrdə və strateji yüksəkliklərdə qeyri-qanuni erməni silahlı dəstələrinin gizlənməsi və tərtiblənərək mövqelər qurması, həmçinin azad edilmiş ərazilərə qayıdan azərbaycanlı ailələrin, həmçinin tikinti-quruculuq işlərində çalışan mütəxəssislərin qeyri-qanuni erməni silahlı dəstələrinin təxribat-diversiya aktlarına və artilleriya atəşinə məruz qalacağı barədə də kifayət qədər məlumatlar var idi.

480 kilometrə qədər təmas xətti boyu bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək məqsədilə Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən artıq müşahidə kamerasının quraşdırıldığı ordumuzun kəşfiyyat vasitələri tərəfindən müəyyən olunmuşdu.

Narahatlıq doğuran daha bir məsələ isə Ermənistan silahlı birləşmələrinin qalıqlarının qaldığı ərazilərdə "Voma", "Yerkrapah", "Artsiv-30-Ararat" terror təşkilatları və "İşığın ordusu", "Qırmızı beretlilər 5165", "Erməni qartalları", "Aramo 114" könüllü dəstələrinin 11 təlim və tədris mərkəzində döyüş hazırlığı və atış çalışmalarına cəlb edilməsi idi.

Yəni, biz düşmənin hər bir addımından xəbərdar idik və münasib məqamı gözləyirdik. İmkan, şərait yarandı, vaxt yetişdi və Ali Baş Komandan tərəfindən tapşırıq verildi. Cənab Ali Baş Komandan nəyin nə vaxt ediləcəyini yaxşı bilirdi. Silahlı Qüvvələrimiz isə dövlət başçısının tapşırığını uğurla, inamla və qısa zamanda yerinə yetirdi.

**- Cənab polkovnik, Vətən Müharibəsindən antiterror əməliyyatına qədər ötən dövrə nəzər salaq... Biz həmişə olduğu kimi, səbirli davrandıq, amma Ermənistan tərəfi təxribatlardan əl çəkmədi. Məhz bu təxribatlar antiterror əməliyyatını şərtləndirdi. Ordumuzun uğurlu antiterror əməliyyatı Azərbaycan ərazisində separatizmin kökünü kəsdi...**

- Antiterror əməliyyatını zəruri edən bəzi xronoloji məqamlara toxunmaq istərdim. 2022-ci il martın 26-sı səhər saatlarında dumanlı hava və məhdudgörmə şəraitindən istifadə edən qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri bölmələrimizə qarşı daha bir təxribat törətməyə cəhd göstərdilər. Tərəfimizdən görülən tədbirlər nəticəsində silahlı dəstələrin üzvləri geri çəkilməyə məcbur edildi. Erməni silahlılarının aktivləşməsi Ağdam şəhəri və rayonu ərazisində infrastrukturun bərpası işlərini həyata keçirən şirkətlərin mülki işçilərinin həyatı üçün ciddi təhlükə yaradırdı. Mümkün təxribatların qarşısını almaq məqsədilə bölmələrimiz qısa müddətdə Fərrux kəndi və ətrafındakı hakim yüksəklikləri nəzarətə götürərək orada döyüş mövqeləri qurdu. Lakin bir müddət sonra bizim mövqelərimiz atəşə məruz qaldı. Dərhal görülmüş tədbirlər nəticəsində erməni silahlılarının atəş nöqtələri susduruldu və bölmələrimiz yeni mövqelərdə möhkəmləndi. Fərrux dağının ətəyindəki geniş vadi nəzarətə götürülərək, Cinli, Çullu, Əlimədətli, Mollalar və Əliağalı kəndlərinin təhlükəsizliyi, habelə Xankəndi-Ağdərə avtomobil yoluna vizual nəzarət təmin edildi. Bölmələrimiz Ağdam rayonunun bir çox ətraf yaşayış məntəqələrini və geniş əkin sahələrini su ilə təmin edə biləcək Xaçınçay su anbarını mühafizə altına aldı. Əməliyyat nəticəsində 14,84 km² ərazi nəzarətə götürüldü. Fərrux istiqamətində qurulmuş yeni mövqelər əvvəlkilərdən 500 metr və daha artıq hündürlükdə yerləşməklə, bölmələrimizə düşmən üzərində üstünlük qazandırdı. Ancaq qeyri-qanuni erməni silahlıları növbəti təxribata əl atdılar.

2022-ci il avqustun 3-də qeyri-qanuni erməni silahlı dəstələri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən yüksəklikləri ələ keçirmək və orada yeni döyüş mövqeləri qurmaq məqsədilə Azərbaycan Ordusunun bölmələrinə qarşı növbəti terror-təxribat əməli törətdi. Azərbaycan Ordusu bölmələrinin bu təxribata cavab olaraq keçirdiyi "Qisas" əməliyyatı zamanı qeyri-qanuni erməni silahlı dəstələrinin Ağdərə rayonunun Yuxarı Ortakənd yaşayış məntəqəsindəki hərbi hissəsinə havadan zərbə endirildi. Nəticədə onların canlı qüvvəsi, artilleriya qurğuları, avtomobil texnikası və çoxlu sayda döyüş sursatı məhv edildi.

Əməliyyat zamanı Qarabağın qərb hissəsi boyu 100 kilometr məsafədə yerləşən erməni silahlı dəstələrinin döyüş mövqeləri dağıdıldı, təhlükəsizliyin təmin edilməsi məqsədilə Kiçik Qafqaz dağ sisteminin Qarabağ silsiləsi boyu Buzluq, Üçdik, Qırxqız, Sarıbaba və digər əhəmiyyətli yüksəkliklər nəzarətə götürüldü, bölmələrimiz həmin hakim yüksəkliklərdə tərtiblənərək yeni döyüş mövqeləri qurdu və orada möhkəmləndi. Çayqovuşan, Ağdaban, Çərəktar və digər yaşayış məntəqələri vizual müşahidəyə və atıcı silahlardan atəş məsafəsində nəzarətə götürüldü. Bununla da Qarabağın qərb hissəsindən dərinliyə doğru düşmən mövqelərini yarma və dövrələmə imkanı əldə edildi, taktiki və operativ baxımdan düşmən üzərində müşahidə və atəş üstünlüyü qazanıldı.

Bildiyiniz kimi, 2022-ci il oktyabrın 6-da Praqada "Avropa Siyasi Birliyi" Zirvə Toplantısı çərçivəsində keçirilmiş dördtərəfli görüşdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etdi. Lakin Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatları səngimədi. Ermənistan tərəfindən Azərbaycan Respublikasının vaxtilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarına etiraz olaraq, 2022-ci il dekabrın 12-dən etibarən qeyri-hökumət təşkilatları və ekofəallar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində dinc etiraz aksiyası başladı. Bundan sonra qeyri-qanuni erməni silahlı dəstələri Xankəndi-Şuşa-Laçın əsas yolu yandan keçməklə bəzi dağlıq və torpaq ərazilərdən bir neçə marşrut üzrə yeni yolların çəkilməsi, həmçinin mövcud cığırların genişləndirilməsi işlərinə başladı. Bu fəaliyyətlərə yerli mülki sakinlər də cəlb edilirdilər. Qeyri-qanuni erməni silahlı dəstələrinin gücləndirilməsi məqsədilə 2023-cü ilin əvvəllərindən başlayaraq bu yollardan istifadə etməklə Ermənistandan canlı qüvvə, silah, sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması daha da intensivləşdi. Müşahidələrimizə əsasən, hərbi yük daşımaları xüsusilə gecə vaxtı və dumanlı hava şəraitində həyata keçirilirdi.

2023-cü il martın 5-də səhər saatlarında Ermənistandan hərbi ləvazimatların, silah, sursat və şəxsi heyətin Xankəndi-Xəlfəli-Turşsu torpaq yolu ilə Rusiya Sülhməramlı Kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınması barədə operativ məlumatlar daxil oldu. Məlumatın dəqiqləşdirilməsi məqsədilə qanunsuz hərbi daşınmalar həyata keçirən nəqliyyat vasitəsinin bölmələrimiz tərəfindən saxlanılaraq yoxlanılmasına cəhd göstərildi. Lakin bu tələbə tabe olmayan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri hərbi qulluqçularımıza atəş açdı və baş vermiş insident nəticəsində hər iki tərəfdən həlak olan və yaralananlar oldu.

Yaranmış vəziyyət nəzərə alınaraq, Laçın yolunun şimalındakı torpaq yollardan qeyri-qanuni istifadənin, həmçinin Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və mümkün təxribatların qarşısının alınması məqsədilə tərəfimizdən zəruri nəzarət tədbirləri həyata keçirildi. Kornidzor-Dığ yolunda marşrutun dəyişilməsi ilə əlaqədar Ermənistanla şərti sərhəddə taktiki üstünlüyə nail olmaq məqsədilə ordumuzun bölmələri qarşı tərəfi qabaqlayaraq sərhəd boyu vacib ərazini, ümumilikdə 6,2 km² sahəni nəzarətə götürdü.

Azərbaycan Ordusu tərəfindən Kərkicahan-Xəlfəli-Turşsu yolunun nəzarət altına alınmasına və ekofəallar tərəfindən Xankəndi-Laçın yolunun bağlanmasına baxmayaraq, qeyri-qanuni erməni silahlı dəstələri alternativ yollardan istifadə edərək Həkəri çayı üzərindəki körpüdən keçməklə Ermənistandan Qarabağa silah-sursat və minaların daşınmasını davam etdirdi.

Ermənistanın hərbi rəhbərliyinin göstərişi ilə vəziyyəti daha da gərginləşdirmək məqsədilə 2023-cü il aprelin 22-si saat 17:00 radələrində Şuşa rayonunun Allahqulular kəndi istiqamətindəki torpaq yolda növbəti təxribat törədildi. Kənd ətrafındakı yüksəkliklərdə yerləşən mövqelərimizə təminat vasitələri daşıyan Azərbaycan Ordusunun hərbi yük maşını ermənilər tərəfindən yolun hərəkət hissəsinə qəsdən basdırılmış tank əleyhinə minaya düşərək partladı. Nəticədə avtomobilin sürücüsü və maşın başçısı yaralandı, nəqliyyat vasitəsi sıradan çıxaraq yararsız vəziyyətə düşdü. Bundan başqa, yaralılara yardım göstərmək üçün gələn hərbi qulluqçulardan biri piyada əleyhinə minaya düşərək xəsarət aldı.

(Ardı 5-ci səhifədə)

# Polkovnik Anar Eyvazov: “Antiterror əməliyyatının qısa müddət ərzində uğurla başa çatması peşəkarlığın və döyüş təcrübəsinin nəticəsidir”

**(Əvvəli 4-cü səhifədə)**

Qarabağ iqtisadi rayonunda, Xankəndi-Turşsu arasındakı səhra yolları ilə qanunsuz yüklərin daşınmasının qarşısının alınması məqsədilə Mirzələr yaşayış məntəqəsinin cənubundakı əhəmiyyətli ərazi qisimləri və yollar 24-25 mart tarixlərində ordumuz tərəfindən atəş açılmadan nəzarətə götürüldü, 9 yeni döyüş mövqeyi quruldu. Keçirilmiş əməliyyat nəticəsində Qarabağ iqtisadi rayonunun 17,62 $km^2$ ərazisi, o cümlədən Allahqulular və Zamanpəyəsi yaşayış məntəqələri Azərbaycan Ordusunun nəzarətinə keçdi.

Kornidzor-Dığ yolunda marşrutun dəyişilməsi ilə əlaqədar Ermənistanla şərti sərhəddə taktiki üstünlüyə nail olmaq məqsədilə 29-30 mart tarixlərində bölmələrimiz qarşı tərəfi qabaqlayaraq sərhəd boyu hakim ərazi qisimlərində tərtibləndi və 6,2 $km^2$ ərazini nəzarətə götürərək 15 yeni döyüş mövqeyi qurdu.

2023-cü il aprelin 22-dən 23-nə keçən gecə Dövlət Sərhəd Xidməti Azərbaycan Ordusunun bölmələri ilə birgə Həkəri çayı üzərindəki körpüdə Sərhəd Buraxılış Məntəqəsini qurdu. Bununla da Həkəri çayı üzərindən bütün hərəkət və daşımaların Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilməsi təmin edildi. Həkəri çayı üzərindəki körpüdə sərhəd-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar vəziyyətin gərginləşəcəyi təqdirdə mümkün təxribatların qarşısının alınması və Laçın dəhlizinin tam nəzarətə götürülməsi məqsədilə ordumuzun bölmələri Laçın dəhlizinin hər iki tərəfində gizli şəkildə tərtiblənərək qəfil yarana biləcək tapşırıqların icrasına hazır vəziyyətdə qalmaqla Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin təhlükəsizliyini təmin etmişdilər.

Sərhəd Buraxılış Məntəqəsinin qurulması nəticəsində ölkəmiz bütün sərhədlərində suveren hüquqlarını bərpa etdi. Ermənistandan Qarabağa bütün növ qanunsuz hərbi yük daşımalarının qarşısı alındı. Beləliklə, 2023-cü il aprelin 23-də növbəti tarixi hadisə baş verdi. Azərbaycanın ərazi bütövlüyünün tam bərpası prosesi başa çatdı. Ermənistanın Laçın yolundan sui-istifadəsinə və digər qanunsuz əməllərinə birdəfəlik son qoyuldu.

Həkəri çayı üzərindəki körpüdə Sərhəd Buraxılış Məntəqəsi qurulduqdan sonra Ermənistan tərəfi bölgədə reallığı əks etdirməyən humanitar fəlakət təbliğatına başladı. Ermənistan və onun havadarları guya humanitar böhran adı altında beynəlxalq səviyyədə Azərbaycana qarşı genişmiqyaslı qarayaxma kampaniyasına başladılar. Eyni zamanda, "humanitar yüklər" daşıyan maşınların sərhədlərimizə doğru gətirilmə prosesi başladı. Lakin ölkəmizin qəti iradə nümayiş etdirməsi, Ağdam yolunun açılması və humanitar yardımların bu alternativ yol vasitəsilə həyata keçirilməsi tələbini qoyması, diplomatik korpusun nümayəndələrinin həmin ərazilərə səfərlərinin təşkili Ermənistanın bu təbliğatının ifşasına böyük dəstək oldu. Əslində isə, Ermənistan tərəfi humanitar yardım adı altında Qarabağ iqtisadi zonasında olan Ermənistan silahlı qüvvələrinin qalıqlarına, eləcə də qeyri-qanuni erməni silahlı dəstələrinə silah-sursat, yanacaq, ərzaq və digər hərbi ləvazimatlar daşımağa cəhd göstərirdi. Ermənistan tərəfinin humanitar yardım daşımaq adı altında əraziyə daxil olmaq istəyən yük maşınlarının yoxlanılmasına qəti surətdə etiraz etməsi bunu bir daha təsdiq edir. Daha bir fakt olaraq Azərbaycanın təklif etdiyi humanitar yardımdan uydurma humanitar fəlakətə məruz qalmış erməni əsilli sakinlərin yardımlardan imtina etməsini də göstərmək olar. 2023-cü ilin ikinci yarısından başlayaraq, xüsusilə avqust-sentyabr ayları ərzində Qarabağ bölgəsindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin ordumuzun mövqelərini müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutması, Ermənistan silahlı qüvvələrinin şərti sərhəddə döyüş mövqelərini şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi və mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin, eləcə də mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən müşahidə edilirdi.

2023-cü il sentyabrın 2-də Ermənistanın baş naziri Nikol Paşinyan qondarma "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin ildönümü ilə əlaqədar təbrik müraciəti ünvanladı. Sentyabrın 9-da Azərbaycanın Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" keçirildi. Paşinyan hökumətinin qondarma rejimə təbrik göndərməsi separatçı qüvvələrin yeni bir hakimiyyət formalaşdırması cəhdləri və Vardanyanın həmin ərazidə Azərbaycana qarşı təxribat xarakterli hərəkətləri, həmçinin qeyri-qanuni silahlı dəstələrə maddi dəstək verməsi də Ermənistanın daha böyük hərbi təxribatlara hazırlaşdığını göstərirdi.

Beləliklə, özündə kapitulyasiya aktını ehtiva edən Üçtərəfli Bəyanatı imzaladığı vaxtdan 2023-cü ilin sentyabr ayınadək olan dövrdə Ermənistan tərəfindən həyata keçirilən təxribatlar antiterror əməliyyatının keçirilməsini labüd etmişdir.

Sentyabrın 19-da ölkəmizin dövlət qurumlarına məxsus iki nəqliyyat vasitəsinin qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda əvvəlcədən quraşdırılmış minalara düşərək partlaması nəticəsində polis əməkdaşları, mülki vətəndaşlarımız və hərbi qulluqçularımız həlak oldular və yaralandılar.

Ali Baş Komandanın göstərişi ilə Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin bölmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa və quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin, hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Silahlı Qüvvələrimiz tərəfindən Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatı keçirildi. Əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin ön xətt və dərinlikdə olan mövqeləri, uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və digər legitim hərbi hədəfləri yüksək dəqiqliyə malik silahların tətbiqi ilə sıradan çıxarıldı.

Qanunsuz silahlı qruplaşmaların tərk-silah edilməsi və separatçı rejimin ləğvi nəticəsində Qarabağ iqtisadi rayonu üzərində Azərbaycanın suverenliyi tam bərpa olundu.

**- Əməliyyatın bəzi təfərrüatlarının açıqlanması oxucular üçün, əminik ki, maraqlı olar...**

- Bildiyiniz kimi, əməliyyat 19 sentyabr 2023-cü il saat 13:10-da başladı (saat 13:22-də artıq əməliyyatın başlaması barədə Müdafiə Nazirliyi rəsmi məlumat verdi) və 20 sentyabr saat 13:00-da bitdi, yəni, bir sutkadan az davam etdi. Bu gün fəxrlə qeyd edə bilərik ki, Müzəffər Ali Baş Komandanın şəxsi nəzarəti altında keçirilən antiterror əməliyyatının qısa müddət ərzində, cəmi 23 saat 50 dəqiqəyə uğurla başa çatması peşəkarlığın və döyüş təcrübəsinin nəticəsidir.

Qeyd etməliyəm ki, bu əməliyyata Quru Qoşunlarının komando, mexanikləşdirilmiş və motoatıcı bölmələrinin bir qismi, Hərbi Hava Qüvvələrinin, Hərbi Dəniz Qüvvələrinin və Xüsusi Təyinatlı Qüvvələrin bəzi qrupları, eləcə də raket-artilleriya və mühəndis-istehkam bölmələrinin məhdud sayda şəxsi heyəti və döyüş texnikası cəlb olunmuşdu. Düşmənin uzun müddət ərzində qurduğu və möhkəmləndirdiyi mövqeləri əməliyyata cəlb edilmiş bölmələrimiz yüksək peşəkarlıq sayəsində məharətlə yarıb keçə bildi.

Qarşıya qoyulmuş döyüş tapşırıqlarının icrasında istifadə edilən tanklar, piyadanın döyüş maşınları, zirehli transportyorlar, artilleriya sistemləri, hərbi aviasiya və radioelektron mübarizə vasitələrinin, eləcə də pilotsuz uçuş aparatlarının effektiv tətbiqi və səmərəli istifadə olunması əməliyyatın uğurla nəticələnməsində böyük rol oynadı.

Vətən müharibəsində və digər əməliyyatlarda olduğu kimi, Azərbaycan Prezidenti, cənab Ali Baş Komandanın əsas göstərişi bu idi ki, qarşıya qoyulmuş tapşırıqlar şəxsi heyət arasında minimum itki ilə yerinə yetirilsin. Bu məqsədlə əməliyyat başlayan kimi ordumuzun arsenalında olan yüksək dəqiqliyə malik silahlardan düşmənin legitim hədəflərinə zərbələr endirildi. Dəqiq zərbələrlə düşmənin 1761 hədəfi sıradan çıxarılmışdı. Tapşırıqların icrası zamanı qarşılıqlı əlaqədə hərəkət edən bölmələrimiz bütün istiqamətlərdə uğurlar əldə etmiş və qısa zaman ərzində düşmənin 90-dan çox döyüş mövqeyini ələ keçirmişdi.

Bir faktı da qeyd etməliyəm. Əməliyyat şimalda beş, cənubda isə səkkiz olmaqla, 13 istiqamətdə həyata keçirilmişdi. Vətən müharibəsindəki təcrübəmizdən yararlanaraq və əməliyyatın keçirildiyi ərazinin relyefini nəzərə alaraq, bölmələrimiz əsasən kiçik qruplar halında hərəkət edirdilər. Bu da həm sürətli hərəkəti təmin edir, həm də düşmən üçün qəfil yaxalanma effekti yaradırdı. Bunun nəticəsidir ki, hücum istiqamətlərində bölmələrimiz az bir vaxtda Ağdərə-Əsgəran, Xankəndi-Xocavənd, Suqovuşan-Vəng, Təzəkənd-Sırxavənd, eləcə də Xankəndi-Xocalı istiqamətində düşmənin dərinliyinə 5-26 kilometr irəliləyərək həmin istiqamətlərdəki bütün yolları nəzarət altına almışdı. Artıq bir neçə saatdan sonra düşmən dərinliyinə sızan və 9,5 km irəliləyən xüsusi təyinatlı bölmələrimiz bütün istiqamətlərdə əraziyə giriş-çıxışa nəzarətin tam təmin olunması üzrə tapşırığı uğurla icra etmişdilər.

Demək olar ki, əməliyyatın müqəddəratı tam bizim xeyrimizə uğurla həll olunmuşdu. Məhz Silahlı Qüvvələrimizin birgə fəaliyyəti nəticəsində nail olduğumuz bu üstünlüklərdən sonra separatçı rejimin rəhbərliyi və Ermənistan silahlı qüvvələrinin qalıqlarının komandanlığı təslim olmaq barədə müraciət etmək məcburiyyətində qaldı. Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirərək, beynəlxalq humanitar hüququn norma və prinsipləri çərçivəsində, heç bir mülki şəxsi və ya obyekti hədəfə almadan antiterror əməliyyatı keçirmiş və 24 saatdan da az müddətdə 15-18 minlik hərbi qruplaşmanı təslim olmağa məcbur etmişdi.

**- Antiterror əməliyyatı regionda sülhün bərqərar olmasına misilsiz töhfə verdi, Azərbaycanın inamlı qələbəsi bir daha sübut etdi ki, daha ölkəmizlə ultimatum dilində danışmaq olmaz…**

- Bilirsiniz, antiterror əməliyyatının nəticələrindən danışarkən, bir məqamı xüsusi olaraq bir daha qeyd etmək istəyirəm. Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin dediyi kimi, separatizmin kökü kəsildi, Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qeyri-qanuni silahlı dəstələrin tərk-silah edilərək ərazilərimizdən çıxarılması mümkün oldu, ölkəmizin suverenliyi tam təmin edilməklə bütün ölkə ərazisində Azərbaycan Respublikasının Konstitusiya quruluşu bərpa olundu.

Mətbuata və geniş ictimaiyyətə indiyədək məlum olmayan bəzi faktları vurğulamaq istərdim. Cəmi bir gün ərzində 406 $km^2$ ərazi yad ünsürlərdən təmizlənərək tam nəzarətimiz altına alındı. Əməliyyat zamanı düşmən, ölən 310 nəfər və yaralı 614 nəfər olmaqla, şəxsi heyət sarıdan itki verdi.

Bəzi statistik məlumatlara da nəzər salınması zənnimcə yerinə düşər. 19-20 sentyabr tarixlərində ordumuzun dəqiq zərbələri nəticəsində düşmənin 8 tank, 22 artilleriya sistemləri, 14 minaatan, 3 zenit kompleksi, 8 REM vasitələri, 9 hərbi nəqliyyat vasitəsi olmaqla silah və texnikası məhv edildi. Həmçinin əməliyyatın nəticəsi olaraq 1731 müxtəlif döyüş texnikası, artilleriya vasitələri, zenit-raket qurğuları, hərbi avtomobil, xüsusi texnika və digər döyüş vasitələri, eləcə də 18664 atıcı silah düşməndən müsadirə edilərək götürüldü.

Əməliyyatın xüsusiyyətlərindən söhbət açarkən qeyd etməliyəm ki, Ordumuzun bölmələri yaşayış məntəqələrinə daxil olmadı və erməni əsilli mülki əhali ilə təmasa girmədi. Yaşayış məntəqələri və orada yaşayan əhali zərər çəkməsin deyə əməliyyatda iştirak edən bölmələrin arxasınca hərəkət edən Daxili Qoşunların qüvvələri ilə mülki əhali silahlı toqquşmadan təcrid edildi. Mülki infrastruktura və əhaliyə, yaşayış məntəqələrinə zərbələr endirilmədi.

Vətən müharibəsində və digər əməliyyatlar zamanı olduğu kimi, antiterror əməliyyatı zamanı hərbi polis bölmələri tərəfindən ərazilərdə komendant və patrul xidmətinin təşkili, zərurət yarandıqda marşrutların tənzimlənməsi, hərbi avtomobil texnikalarının müşayiət edilməsi və hərəkətinin istiqamətləndirilməsi, hərbi maşın karvanlarının təhlükəsizliyinin təmin olunması, qoşunların hərəkət etdiyi ərazilərdə təhlükəsizliyin və nizam-intizamın təmin olunmasına nəzarət, mühüm əhəmiyyətli obyektlərin, milli-mədəni irsə aid abidələrin mühafizəyə götürülməsi, düşmən bölmələrinin qoyub qaçdığı silah və texnikaların ərazilərdən yığılaraq aidiyyəti üzrə müvafiq orqanlara təhvil verilməsi, həmçinin erməni əsilli mülki sakinlərin döyüşlər gedən ərazilərdən uzaq tutulması və qorunması üzrə qarşıya qoyulan tapşırıqları bacarıqla yerinə yetirilmişdir.

Geniş cəbhədə və iti sürətli keçirilən əməliyyat zamanı düşmənə çox güclü atəş və REM təsiri göstərildi ki, bunun nəticəsində də bölmələrimizin qısa müddətdə ön döyüş mövqelərini düşməndən təmizləyərək sürətlə dərinliyə irəliləməsi təmin olundu. Əməliyyatın gündüz başlamasına və əlverişsiz hava şəraitində, dağlıq-meşəlik ərazidə keçirilməsinə baxmayaraq, bölmələrimizin döyüş hazırlığı, yüksək idarəetmə və nail olduğumuz uzlaşma sayəsində qarşıya qoyulan bütün tapşırıqlar vaxtında və uğurla yerinə yetirildi. Bu gün tam səmimiyyətlə deyə bilərik ki, antiterror əməliyyatı üzrə planda nəzərdə tutulan tapşırıqların icrasının qısa zaman ərzində təmin olunmasında zabit, gizir və əsgər heyətinin peşəkarlığı və əvvəlki döyüş əməliyyatlarında qazandığımız təcrübə böyük rol oynadı.

**- Cənab polkovnik, Qarabağ iqtisadi zonasında qalmış Ermənistan silahlı birləşmələrinin qalıqlarını və qeyri-qanuni erməni silahlı dəstələrini qısa müddətdə təslim olmağa məcbur edən amillərdən danışarkən hansı məqamları xüsusi olaraq vurğulamaq istərdiniz?**

**(Ardı 6-cı səhifədə)**

# Polkovnik Anar Eyvazov: "Antiterror əməliyyatının qısa müddət ərzində uğurla başa çatması peşəkarlığın və döyüş təcrübəsinin nəticəsidir"

(Əvvəli 4-5-ci səhifədə)

- İlk olaraq qeyd edim ki, əvvəlki təcrübədən fərqli olaraq əməliyyatın günorta saatlarında və əlverişsiz hava şəraitində başlaması qəfilliyi təmin etdi. Həmçinin qoşunlarımızın sürətlə irəliləyərək Qarabağ iqtisadi zonasında əsas kommunikasiya yollarını, xüsusilə də Ağdərə-Xankəndi və Xocavənd-Xankəndi yollarını nəzarətə götürməsi düşməni manevr imkanlarından məhrum etdi, Xankəndi şəhərinin həm qərbdən, həm də şərqdən dövrələnərək mühasirəyə alınması düşmənin müqavimət gücünü azaltdı və əzmini tam qırdı. Antiterror əməliyyatını fərqləndirən, mən deyərdim ki, unikal edən faktorlardan biri də odur ki, kütləvi atəş zərbəsi zamanı qanunsuz silahlı qruplaşmalara məxsus bütün hərbi infrastruktur obyektlərinə, atəş və döyüş mövqelərinə həm eyni anda, həm də qarşılıqlı əlaqə şəraitində güclü atəş zərbəsinin endirilməsi düşməndə şok effekti yaratdı.

Əməliyyat zamanı arsenalımızda olan yüksək dəqiqliyə malik ən müasir silahların və REM vasitələrinin effektiv tətbiqini də xüsusi qeyd etmək istərdim. İlk növbədə düşmənin hava hücumundan müdafiə və REM vasitələrinin, idarəetmə orqanlarının və bütünlükdə idarəetmə sisteminin sıradan çıxarılması müqavimət göstərməyə çalışan qüvvələrin idarəetməsini iflic vəziyyətinə saldı ki, bu da bölmələrimizin sürətlə irəliləməsini və operativliyi təmin etdi.

Sadə dillə desək, düşmənə gözünü açmağa, başını qaldırmağa imkan vermədik. Bölmələrimizin eyni vaxtda, güclü və dəqiq atəş dəstəyi ilə 13 istiqamətdə irəliləməsi Ermənistan silahlı birləşmələrinin qalıqlarının komandanlığını və separatçı rejimin rəhbərliyini çaşdırdı və qərarsızlıqlarına səbəb oldu. İdarəetməni itirən, əlavə güc və qüvvə cəlb etməyə imkan tapmayan düşmən qüvvələri isə döyüş ruhu yüksək olan Azərbaycan Ordusunun bölmələri tərəfindən ya zərərsizləşdirildi, ya da silah-texnikasını ataraq qaçmağa məcbur edildi. Sonrakı hadisələrdən isə ictimaiyyət məlumatlıdır.

**- Cənab polkovnik, Qarabağ iqtisadi zonasında həyata keçirilən antiterror əməliyyatı zamanı mətbuatla işiniz və ictimaiyyətə təqdim edilən informasiyalar, yəni, kommunikasiya fəaliyyəti barədə də danışmağınız oxucular üçün maraqlı olardı.**

- Antiterror əməliyyatı zamanı, həyata keçirilən informasiya təminatı tədbirlərinə də toxunmaq istərdim. Bu məqsədlə əməliyyatdan öncə və əməliyyat zamanı kiber vasitələrin, eləcə də radio, televiziya, səsgücləndiricilər və mobil nömrələrinə göndərilən sms-lər vasitəsilə Qarabağ iqtisadi zonasında məskunlaşmış erməni əsilli mülki əhaliyə çağırışlar edildi, onlara bütün humanitar yardımların göstəriləcəyi, o cümlədən zəruri ərzaq, yemək, su və bütün tibbi yardımların veriləcəyi barədə məlumatlar çatdırıldı. Onlara silaha əl atmamaq, hərbi obyektlərdən uzaq olmaq, eləcə də əməliyyatın keçirildiyi ərazilərə gəlməmək barədə çoxsaylı xəbərdarlıqlar edildi, erməni və rus dillərində müxtəlif vasitələrlə vərəqələr paylanıldı.

Xüsusi olaraq qeyd etməliyəm ki, əməliyyatın gedişi ilə bağlı ictimailəşdirilməsi məqsədəuyğun hesab edilən məlumatlar dərhal media vasitəsilə operativ şəkildə yayımlandı. Əməliyyatın gedişatında, 23 saat 50 dəqiqə ərzində yerli və beynəlxalq ictimaiyyətin operativ məlumatlandırılması, o cümlədən hərbi əməliyyatlar zamanı şəffaflığın təmin edilməsi, Azərbaycan Silahlı Qüvvələrinin yerinə yetirdiyi haqq işinin düzgün təqdim edilməsi və dezinformasiyaların dəf edilməsi məqsədilə aidiyyəti dövlət qurumları tərəfindən 11 brifinq, 46 press-reliz, 51 sosial media paylaşımı, 3 sorğunun cavablandırılması və 20 video kontent olmaqla, ümumilikdə 131 kommunikasiya fəaliyyəti icra edilmişdir. Əməliyyatdan sonra həyata keçirilən proseslərlə də bağlı mütəmadi olaraq geniş ictimaiyyətin 3 dildə məlumatlandırılması təmin olunmuş, ümumilikdə antiterror əməliyyatı ilə bağlı hadisələrin, icra olunan fəaliyyətlərin, yerinə yetirilən döyüş tapşırıqlarının dəqiq və ardıcıl xronologiyası da hazırlanmışdır. Hesab edirəm ki, torpaqlarımızın azad edilməsi, haqq-ədalətin bərpası və suverenliyimizin tam təmin olunması ilə bağlı dövlətimizin həyata keçirdiyi böyük işlər haqqında doğru-düzgün məlumatların qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi də böyük tarixi və tərbiyəvi əhəmiyyət kəsb edir.

Sonda fəxr hissi ilə qeyd etmək istəyirəm ki, həmişə olduğu kimi, Şanlı Ordumuzun əldə etdiyi uğurlar Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi və antiterror əməliyyatında iştirak edən şəxsi heyət yüksək dövlət təltiflərinə layiq görüldü. Bu diqqət və qayğıya görə bütün şəxsi heyət dövlətimizin başçısına dərin minnətdarlıq ifadə edir. Cənab Prezidentin bu qayğıkeş münasibəti bizi daha məsuliyyətlə xidmət etməyə və Vətənimizin keşiyində daima ayıq-sayıq dayanmağa, hər bir əmrin icrasına hazır olmağa ruhlandırır.

**- Cənab polkovnik, antiterror əməliyyatında qələbəmizin birinci ildönümü münasibətilə Silahlı Qüvvələrimizin şəxsi heyətini ürəkdən təbrik edir, xidmətdə uğurlar arzulayırıq. Maraqlı və səmimi müsahibəyə görə təşəkkür edirik.**

- Çox sağ olun!

**Müsahibəni apardı:**
**İsa İSMAYILOV**
**hərbi jurnalist,**
**Nadiyə QAFAROVA**
**tərcüməçi-publisist**

# "Vətən fədailəri: Tovuz şəhidləri" kitabının təqdimat mərasimi keçirilib





Yazıçı-publisist, AYB-nin üzvü, "Vətən fədailəri" layihəsinin rəhbəri Manya Səxavətqızının şəhidlərə həsr etdiyi növbəti "Vətən fədailəri: Tovuz şəhidləri" kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, təqdimatı keçirilən kitab "Vətən fədailəri" layihəsinin dördüncü hissəsidir. Bundan əvvəl "Vətən fədailəri: Naxçıvan şəhidləri" I hissə, "Vətən fədailəri: İmişli şəhidləri" II hissə, "Vətən fədailəri: Şəki şəhidləri" III hissə ərsəyə gətirilib.

Tovuz rayonu Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində keçirilən təqdimat mərasimində şəhid ailələri, döyüşlərdə yaralananlar, hərbçilər və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Bir dəqiqəlik sükutla şəhidlərimizin xatirələri anıldıqdan sonra Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra layihənin rəhbəri Manya Səxavətqızı və digər çıxış edənlər "Vətən fədailəri" layihəsi haqqında məlumat veriblər. "Vətən fədailəri: Tovuz şəhidləri" kitabının mahiyyətindən və bu layihənin vacibliyindən söz açılıb.

"Vətən fədailəri" layihəsinin IV hissəsi olan "Vətən fədailəri: Tovuz şəhidləri" kitabı Manya Səxavətqızının şəhidlərə həsr etdiyi 9-cu kitabdır.

# Babaların yurd nisgilinə son qoyan oğullar

Hidayət doğulanda ata yurdu Xocavənd işğalda idi. Ailənin tək oğul övladı olan Hidayətə babasının adı verilmişdi. Babasının yurdu isə viranə qalmışdı. Düşmən işğalı altında inləyirdi. Hidayət kişi ailəsi ilə birgə Beyləqanda məskunlaşmış, lakin ürəyini orada qoyub gəlmişdi, o torpaqlarda - gözünü açdığı, könül bağladığı, əmək verdiyi torpaqlarda. Torpaq həsrəti ilə dünyasını dəyişənlər oldu. Hidayət kişiyə də yenidən torpağına qayıtmaq, öz əlləri ilə tikdiyi ocağını görmək qismət olmadı. Lakin ümidlər ölməmişdi, inam yaşayırdı. Gec-tez yurda qayıdışa böyük inamı oğullar yaşatdı, ailələrdə doğulan uşaqlar vətənpərvərlik ruhunda tərbiyə olundu, tarix unudulmadı. Baba yurdunu işğaldan azad etmək eşqi ilə böyüyənlərdən biri oldu Hidayət. Beyləqanda yerləşən Xocavənd rayon 4 saylı məktəbdən sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verən Hidayət arzusuna nail olur. 2017-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini davam etdirir.

"Özüm Xocavəndi görməsəm də, atam Aydın Quliyev o torpaqlar haqqında sevgi ilə danışar, başımıza gətirilən tarixi faciələrdən bəhs edəndə qaşları düyünlənərdi. Qaradağlı faciəsindən ürəkağrısı ilə bəhs edərdi. Xocavənd-Xankəndi avtomobil yolu üzərində yerləşən kəndin sakinləri tam mühasirə şəraitində olmalarına baxmayaraq, erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparıb. Lakin o dövrün məlum çətinliklərindən dolayı 1992-ci il fevralın 17-də Qaradağlı kəndi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş, kənddə olan 118 nəfər əsir götürülmüş, 68 nəfər öldürülmüşdü. Bu hadisələr tarixdə də təfsilatı ilə var. Bir kənd üçün böyük faciə idi. Baş verən faciələrin qisasını almaq, bizim olanı özümüzə qaytarmaq və nəhayət, babam Hidayətin yarımçıq qalmış arzularını gerçəkləşdirmək həyat amalıma çevrildi. 2020-ci ildə müharibə başlayanda 4-cü kursda oxuyurdum. Böyük vətənpərvərlik duyğusu ilə haqq savaşına qatıldım. Bu yoldan geri dönməmək də vardı. Amma o torpaqlar daha işğalda qala bilməzdi...".



Beləliklə, Hidayət Quliyevin döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilandan keçir. Motoatıcı bölmənin tərkibində döyüşən gənc müharibə bitdikdən sonra Cəbrayıl-Qubadlı istiqamətində dekabrın sonunadək aktiv müdafiənin təşkilində iştirak edir. "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarla qayıdan Hidayət Quliyev yarımçıq qalmış təhsilini başa vurur. Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində növbəti kursu bitirdikdən sonra təyinat üzrə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun bölmələrinin birində xidmətə başlayır. Bütün qüvvəsini şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, döyüş hazırlığının daha da yüksəldilməsinə həsr edən baş leytenant Hidayət Quliyev Vətən müharibəsində qazandığı təcrübəni tabeliyində olan şəxsi heyətə də aşılayır. Xidmət etdiyi hərbi hissədə nümunəvi zabitlərdən olur.

"Atamla Xocavəndə - yurdumuza getdik. Atam uşaq kimi sevinirdi. Mən isə həm sevincli, həm də qürurlu idim. Atama bu sevinci bəxş edənlərdən biri olduğum üçün, adını daşıdığım babamın arzusunu gerçəkləşdirdiyim üçün. Haqq nazilər, amma üzülməz. Biz haqqımız olanı aldıq. Qarabağda quruculuq işləri davam edir. Geriyə qayıdan insanlar da öz sevgi və zəhmətləri ilə şəhid qanı ilə suvarılan torpaqlarda gül-çiçək bitirəcək, yurdu daha da abad edəcəklər. Allah şəhidlərimizə rəhmət eləsin, babalarımızın ruhu şad olsun", - baş leytenant Hidayət Quliyev dedi.

Biz də hərb peşəsinə könül verən, tarixə sayğı duyan, vətənpərvərlik nümunəsi olan gənclərimizlə fəxr edir, xidməti fəaliyyətlərində uğurlar arzulayırıq.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının**
**baş redaktoru**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasətinin formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə və tarixi ədalətin bərpası uğrunda mübarizə.**

**Mövzu:** Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasəti

### Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasətinin formalaşması tarixi

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda, tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Ermənilər ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regiondan kənar qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə özlərinə müxtəlif mükafatlar, yeni-yeni ərazilər, əlavə imtiyazlar almışdır.

"Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin 200 ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni ideoloqlarının uydurduğu "dənizdən-dənizə Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

Rusiya imperiyası XVIII əsrin sonlarından Azərbaycanın Xəzəryanı torpaqlarını nəzarətə götürməyə başladı. XIX əsrin əvvəllərində Rusiya imperiyası I Pyotrun erməniləri Cənubi Qafqaza - Şimali Azərbaycan torpaqlarına köçürmək siyasətini həyata keçirməyə başlamışdır. Rusiya imperiyası tərəfindən ermənilərin XIX əsrin ilk qərinəsində Şimali Azərbaycan torpaqlarına köçürülməsini iki mərhələyə ayırmaq olar: 1801-1828-ci il Türkmənçay müqaviləsinədək olan dövr və Türkmənçay müqaviləsindən sonrakı ilk illər.

1801-1828-ci illərdə Çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycana köçürülməsi, əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasəti ərazilərimizin ələ keçirilməsi prosesi ilə paralel getmişdir. Rusiya imperiyası 1804-cü ilin yanvarında ermənilərin də yaxından iştirakı ilə Gəncə xanlığını ələ keçirdi. 1805-ci il mayın 14-də Qarabağ, 21-də isə Şəki xanlıqları ilə onların Rusiya imperiyasının himayəsinə keçməsi haqqında Kürəkçay müqavilələri imzalandı. Dekabr ayında isə Şirvan xanlığı ilə belə bir müqavilə imzalandı. 1806-cı ildə Dərbənd, Quba və Bakı xanlıqları, 1813-cü ildə Talış xanlığı ilhaq edildi. Rusiya imperiyası, eyni zamanda, Qacarlar dövləti ilə (1804-1813) aparılan müharibənin sonunda bağlanan Gülüstan müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan torpaqları Çar Rusiyasının tərkibinə keçdi. Qafqazdakı rus qoşunlarının baş komandanı general P.D.Sisianov Gəncə, Qarabağ, Şəki, Şirvan və digər Şimali Azərbaycan torpaqlarına ermənilərin köçürülməsində xüsusi fəallıq göstərirdi. Bu hal Şəki (1819), Şirvan (1820) və Qarabağ (1822) xanlıqlarının ləğvindən sonra daha da geniş miqyas aldı.

1804-1813-cü illərdə Rusiya imperiyası - Qacarlar və elə həmin dövrdə gedən Rusiya imperiyası - Osmanlı müharibəsi (1806-1812) Rusiyanın Azərbaycan torpaqlarının tam ələ keçirilməsi planlarına son vermədi. 1826-cı ildə Rusiya imperiyası Qacarlar dövləti ilə yeni müharibəyə (1826-1828) başladı. Qeyd edilən müharibə Türkmənçay müqaviləsi ilə nəticələndi və həmin müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqları da (210 min kv.km. ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya) Rusiya imperiyasının nəzarətinə keçdi. Osmanlı dövləti ilə Rusiya imperiyası arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə Ədirnə sülh müqaviləsi bağlanıldı və Osmanlı dövlətindən də ermənilərin Azərbaycana kütləvi köçürülməsi başlanıldı.

Nəticədə Azərbaycanın ərazisi və xalqı iki yerə bölündü. Şimali Azərbaycan əraziləri süni bölgülərə məruz qalaraq, Rusiya imperiyası tərkibində müxtəlif inzibati hissələrə parçalandı. Ermənistanın 1988-ci ildən etibarən əsassız iddia irəli sürdüyü keçmiş "Dağlıq Qarabağ" ərazisi o vaxt Yelizavetpol quberniyasına daxil idi. Müstəmləkə siyasətini həyata keçirən çarizmin istifadə etdiyi üsullardan biri digər xalqların (erməni, rus və s.) regionuna köçürülərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi idi. Yerləşdirmədə üstünlük ermənilərə verildi. Bu da səbəbsiz deyildi. Dövlətləri olmadığından, Şərqdə daim başqa hakimiyyət altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan itaətkar ermənilər bu işə digərlərindən daha münasib idilər. 1828-1830-cu illərdə Cənubi Qafqaza Qacarlar (İran) dövlətindən 40 min və Osmanlı imperiyasından (Türkiyə) 90 minə yaxın erməni Yelizavetpol və İrəvan quberniyasında ən yaxşı torpaqlarda quberniyanın dağlıq hissəsi (keçmiş "Dağlıq Qarabağ") və Göyçə gölünün sahillərində məskunlaşdırıldı.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti dalğası XIX əsrin ikinci yarısında oldu. Osmanlı dövlətinin ərazisində hökumət əleyhinə baş verən qiyam yatırıldıqdan sonra "Daşnaksütyun" və digər erməni təşkilatları tərəfindən 35-60 min terrorçu erməni Şimali Azərbaycana yerləşdirildi. Əgər məskunlaşma nəticəsində 1873-cü ildə Yelizavetpol quberniyasında 100 min erməni yaşayırdısa, 1886-cı ildə onların sayı 259 min nəfərə çatdırıldı. Ermənilərin yerləşdirilməsi ilə Cənubi Qafqazda etnik-milli ziddiyyətlərin, münaqişələrin və axıdılan qanların toxumu səpildi. "Hnçak" (Zəng), "Daşnaksütyun" (İttifaq) və s. terror təşkilat və komitələri quruldu. Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi arasında tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" ideyası ermənilər üçün uyduruldu. Mövqeləri möhkəmlənən ermənilər yerli xalqlara düşmən münasibəti bəsləyərək onları sıxışdırmağa başladılar. Sosial-iqtisadi, siyasi, milli və dini ziddiyyətlər yarandı.

Rusiya imperiyasının himayəsi altında erməni dövlətinin yaradılması, həmçinin ermənilərin Qacarlar (İran) və Osmanlı (Türkiyə) dövlətlərindən Rusiyanın tərkibinə daxil edilmiş torpaqlara köçürülməsi təsadüfi hadisə olmayıb, ermənilərə olan münasibətlərin qanunauyğun nəticəsi idi. Bu münasibətlərin əsasını yalnız ticarət əlaqələri deyil, başlıca olaraq Şərqin müsəlman dövlətlərinə, xüsusilə Türkiyəyə, XVIII əsrdən etibarən isə həm də Azərbaycana qarşı düşmənçilik münasibəti təşkil edirdi.

### XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə və tarixi ədalətin bərpası uğrunda mübarizə

Azərbaycan ərazilərinə ermənilərin yerləşdirilməsi XX əsrin əvvəllərində də davam etdirildi. 1904-1905-ci illərdə qonşu ölkələrdən 45 min erməni Cənubi Qafqaza gətirilərək məskunlaşdırıldı. Ermənilərin yerli əhaliyə nifrəti böhranlı anlarda açıq düşmənçiliyə çevrildi. 1905-1907-ci illər Rusiyada baş vermiş inqilabın gedişində çarizmin təhriki ilə erməni-azərbaycanlı qırğınları (İrəvanda) törədildi. "Daşnaksütyun"un yaratdığı xüsusi silahl dəstələr Bakıda, Qarabağda və digər ərazilərdə azərbaycanlıları soyqırıma məruz qoydular.

Ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi və törətdikləri kütləvi qırğınlarda növbəti mərhələ Birinci Dünya müharibəsi illəri oldu. Çarizm müharibə illərində "Türkiyədə yaşayan qardaşlarının azad edilməsi" şüarı altında erməni silahlı dəstələrini Osmanlı ərazisi, Cənubi Azərbaycan və Cənubi Qafqazda formalaşdıraraq Rusiya ordusunun cərgələrini doldurdu. Bu dəstələr Anadoluda və Cənubi Azərbaycanda dinc türk əhaliyə qarşı kütləvi qırğınlar törətdilər. Müharibə illərində (1915) Türkiyədən gətirilmiş 100 min, İrandan 120 min erməninin Cənubi Qafqaza məskunlaşdırılması yenə də azərbaycanlılara məxsus torpaqlarda həyata keçirildi. Onlar əsasən Naxçıvan, Sürməli, Eçmiadzin, İrəvan və Yelizavetpolda yerləşdirilmişlər. 1915-ci ildə İrandan və Türkiyədən Eçmiadzinə köçürülən ermənilərin sayı 60 mindən çox idi. Həmin illərdə İrəvan quberniyasına 120 min, Şuşa və Cavanşir qəzalarına 25 min erməni yerləşdirildi.

1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabı nəticəsində, milliyyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Erməni millətçiləri həmin vaxt etiraf edirdilər ki, Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısındadır, əslində, həmin ordu Erməni Milli Şurasına tabe idi. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və Daşnaksütyundan ibarət olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Bu dəhşətli soyqırımı nəticəsində 1918-ci il ərzində 40 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Rusiya imperiyasının süqutunun ardınca İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılmış, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə onun ərazisi 9 min kv. km.-dən 29,8 min kv. km.-ə çatdırılmışdır.

Ermənistan ərazisində ata-baba torpaqlarında yaşayan yüz minlərlə azərbaycanlılara muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə keçmiş qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildi. Beləliklə, erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış oldu və Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyuldu.

Azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci illərdə olduğu kimi, 1948-1953-cü illərdə də indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə didərgin salınıb və deportasiya ediliblər. Yalnız 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Bu zaman onların bir hissəsi, xüsusilə qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olub.

Nəhayət, son sıxışdırma və təcavüz dalğası XX əsrin sonlarında başladı. 1988-1994-cü illərdə erməni millətçilərinin məskunlaşdıqları ərazilərdə "Böyük Ermənistan" yaratmaq istəkləri Azərbaycan xalqının əzəli torpaqlarından qovulmasına və kütləvi insan itkilərinə məruz qalması ilə nəticələdi. Əsrin əvvəllərində olduğu kimi, sonlarında da ermənilərin azərbaycanlılara qarşı ən qanlı cinayətlərdən birini, azərbaycanlıların kütləvi soyqırımını - Xocalı faciəsini törətdilər. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Bağanis-Ayrım, İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Xocalı soyqırımından bir neçə gün əvvəl isə fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tarixi torpaqlarımızın Ermənistan tərəfindən işğalı haqqında demişdir: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Qüdrətli Azərbaycan dövləti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında yumruq kimi birləşən xalqı 44 gün ərzində Ermənistan ordusunu darmadağın edərək illərin həsrətini sonlandırdı, düşmənə sarsıdıcı zərbə vurdu. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonra 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının heç bir güllə atmadan qaytarılması prosesi yekunlaşdı.

2023-cü ilin sentyabrında Azərbaycan Ordusu Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı birləşmələrinin qalıqlarına və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı antiterror əməliyyatı keçirərək onları diz çökdürməklə yanaşı, Azərbaycan xalqının son 200 il ərzində qarşılaşdığı və təkcə azərbaycanlılara deyil, bütün bölgəyə təhlükə yaradan, miqyasından dəfələrlə böyük bir problemi həll etdi və Ulu Öndər Heydər Əliyevin illər öncə dediyi sözləri təsdiqlədi.

İşğala məruz qalmış torpaqlarımızda dövlət bayrağımız dalğalanır. Qalibiyyət rəmzi kimi! Azərbaycan Ordusunun qüdrəti kimi! Xankəndinin mərkəzi meydanında Azərbaycan Bayrağının dalğalanması bütün azərbaycanlıların, Azərbaycanın dövlətçiliyinə sayğısı olan dövlətlərin vətəndaşlarının hamısının qürurudu, şəhidlərin ruhuna gözaydınlığıdı...

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Xəbərlər: hadisələr, faktlar



**İraqda İŞİD-ə qarşı əməliyyat zamanı 7 ABŞ hərbçisi yaralanıb**

İraq təhlükəsizlik qüvvələrinin ABŞ hərbçiləri ilə birgə İŞİD terror təşkilatına qarşı Anbar səhrasında keçirdiyi əməliyyat zamanı 7 amerikalı əsgər yaralanıb.

Bu barədə Associated Press agentliyi Pentaqonun nümayəndəsinə istinadla məlumat yayıb.

Bildirilir ki, İŞİD liderlərini hədəf alan əməliyyat təşkilatın İraq vətəndaşlarına, eləcə də regionda və onun hüdudlarından kənarda ABŞ vətəndaşlarına, müttəfiqlərinə və tərəfdaşlarına qarşı hücumlar təşkil etmək imkanlarını zəiflətmək məqsədi daşıyır. Əməliyyatın gedişində, liderlər də daxil olmaqla, 15 İŞİD üzvü öldürülüb.

2017-ci ildə İraqda, 2019-cu ildə isə Suriyada ələ keçirdiyi ərazilərə nəzarəti itirən qruplaşmaya qarşı mübarizə üçün ABŞ-ın başçılığı ilə 80-dən çox ölkədən ibarət koalisiya yaradılıb. Bununla belə, silahlılar İraq və Suriyanın səhralıq ərazilərində fəaliyyətlərini hələ də davam etdirirlər.

Agentliyin məlumatına görə, İraqda təxminən 2,5 min ABŞ əsgəri var.



**Türkiyə ordusu İraqın şimalında və Suriyada 17 terrorçunu məhv edib**

Türkiyənin Milli Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, bazar günü, sentyabrın 1-də İraqın şimalında və Suriyada 17 terrorçu məhv edilib.

İraqın Qara, Metin bölgələrində və "Pençe-Kilit" antiterror əməliyyatı zonasında silahlılara zərbələr endirilib. Bundan əlavə, Suriyanın Münbiç bölgəsində terrorçular zərərsizləşdirilibər.

Müdafiə Nazirliyinin məlumatına görə, İraqın şimalında 15, Suriyada isə daha iki yaraqlı məhv edilib.

Türkiyənin Milli Müdafiə Nazirliyi regionda terror təhlükəsini tamamilə aradan qaldırmaq əzmində olduğunu vurğulayıb.

Türkiyə ordusunun bölgədə ilin əvvəlindən məhv etdiyi terrorçuların sayı 1830-u keçib.



**Fransız hərbçilərdən sonra alman əsgərləri də Niamey bazasını tərk ediblər**

Nigerin hakimiyyət orqanları ilə Almaniya arasında aparılan bütün danışıqlar nəticəsiz qaldıqdan sonra sonuncu alman əsgərləri bu gün Niamey hərbi bazasını tərk ediblər. 2023-cü ilin sonunda Fransa əsgərlərinin və sentyabrın 15-nə qədər Amerika ordusunun çıxması tələbindən sonra alman əsgərlərinin də ölkəni tərk etməsi tələb olunub.

Niger ordusunun baş qərargah rəisi Mamane Sani Kiaou, ümumilikdə, beş yük təyyarəsi reysi ilə 60 alman əsgəri və 146 ton texnikanın Almaniyaya göndərildiyini bildirib. O, yolasalma mərasimini alman əsgərlərinin və onların təsirinin dayandırılmasının sonunu bildirən hadisə adlandırıb.

Almaniya hərbçilərinin Nigerdən çıxmasına tərəflərin icarə müddətinin uzadılması ilə bağlı razılığa gələ bilməməsi səbəb olub.

Bildirilir ki, alman əsgərləri Niameyi tərk edərək, özlərindən sonra 130 milyon avro dəyərində baza qoyublar.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Azərbaycanın daha bir cüdoçusu dünya çempionatında qızıl medal qazanıb




Azərbaycan cüdoçusu Cəsur İbadlı Perunun paytaxtı Limada yeniyetmələr arasında keçirilən dünya çempionatında qızıl medal qazanıb.

73 kq çəki dərəcəsində çıxış edən idmançı finalda Timur Davidovla (AİN) qarşılaşıb.

Rəqibinə qalib gələn C.İbadlı fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

81 kq çəkidə mübarizə aparan Mehdi Abbasov isə üçüncü yer uğrunda görüşdə Kenzo Kremersi (Belçika) məğlub edərək mundialın bürünc mükafatına sahib çıxıb.

Azərbaycanın 7 cüdoçu ilə təmsil olunduğu dünya çempionatında daha əvvəl Nihad Məmişov (55 kq) qızıl, Məhəmmədəli Hüsiyev (50 kq) isə bürünc medala yiyələnib.

## Azərbaycan parataekvondo millisi Paralimpiadada ikinci yeri tutub



Kişi parataekvondoçulardan ibarət Azərbaycan millisi Fransanın paytaxtı Parisdə keçirilən Yay Paralimpiya Oyunlarında ikinci yeri tutub.

Turnirdə 3 parataekvondoçu ilə təmsil olunan yığmanın üzvləri ümumilikdə 2 medal əldə ediblər.

İmaməddin Xəlilov (K44, 70 kq) qızıl, Sabir Zeynalov (K44, 58 kq) bürünc medal qazanıbsa, Əbülfəz Abuzərli (K44, 80 kq) 14 finala kimi irəliləyib.

Azərbaycan millisi yekun sıralamada yalnız Türkiyə seçməsindən geri qalıb. Üçüncü sırada isə Böyük Britaniya komandası yer alıb.

**AZƏRTAC-ın materialları əsasında**





Müdafiə Nazirliyinin Bakı şəhərində və digər bölgələrdə yerləşən tabeliyindəki hərbi hissə və müəssisələrində vakant mühasib və baş mühasib vəzifələrinə mülki şəxslərin müsabiqə yolu ilə işə qəbulu elan edilir.

Ən azı 2 il mühasibatlıq fəaliyyəti üzrə iş stajı olan vətəndaşlar müsabiqədə iştirak edə bilər.

Qəbul zamanı peşəkar mühasib və maliyyə işi üzrə müvafiq sertifikatları olan şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyən 40 yaşadək namizədlər şəxsi telefon nömrələrini qeyd etmək şərti ilə aşağıdakı sənədləri sentyabrın 20-dək mbi-dost@mod.gov.az e-poçt ünvanına göndərə bilərlər:

- tərcümeyi-hal;
- şəxsiyyət vəsiqəsinin surəti;
- diplomun surəti;
- müvafiq sertifikatların surəti;
- əmək kitabçası və ya əmək fəaliyyəti barədə bildirişin surəti.


# Krossvord, skanvord, çaynvord, kriptoqram




**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Oruc MUSTAFAYEV

Lisenziya № **361**
Sifariş № **518**
Nüsxə **4633**